Azadlıq Radiosu

AZƏRBAYCAN XƏBƏRLƏRİ

# İqtisadiyyat 1.4 faiz artıb, vergi yığımları isə 10 faiz

indicə




Bu ilin ilk maaşından cibdə nə qədər pul qaldı? - Vergi güzəştlərinin ləğvi başladı

Bu ilin yanvar-avqust aylarında Azərbaycanda vergi daxilolmaları artıb. Dövlət Vergi Xidmətinin bu gün, sentyabrın 4-də yaydığı məlumata görə, vergi güzəştlərinin ləğvi büdcə gəlirlərinin 10 faizə yaxın yüksəlməsinə səbəb olub.

Məlumatda bildirilir ki, 2026-cı ilin yanvar – avqust ayları ərzində İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə dövlət büdcəsinə 12 milyard 619.1 milyon manat vergi daxil olub. **Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 9.2 faiz və ya 1 milyard 58 milyon manat çoxdur.**

Qeyri-neft-qaz sektorundan vergi yığımları 12.3 faiz (1 milyard 34.1 milyon manat) artaraq 9 milyard 468.7 milyon manata çatıb. Nəticədə büdcəyə proqnozdan kənar 281.7

milyon manat əlavə vəsait ödənilib.

Bu il ölkə iqtisadiyyatında elə də ciddi artım olmayıb. Dövlət Statistika Komitəsi yeddi ay üçün artımı cəmi 1.4 faiz açıqlayıb.

Əvəzində, bu il Azərbaycanda qeyri-dövlət sektoru üçün 7 illik güzəşt ləğv edilib. Bu ildən onlar gəlir vergisinə cəlb olunmağa başlayıblar.

Bu il həmçinin ölkədə bir sıra sahələr üzrə cərimə və rüsumların məbləği artırılıb. O cümlədən vergi uçotuna durmadan qanunsuz sahibkarlıq fəaliyyətinə görə tətbiq olunan 40 manatlıq maliyyə sanksiyası 200 manata qaldırılıb.

---

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur